

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 208 (21.869)

*2 noyabr 2017-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına işgüzar səfərə gedib.

* * *

Həmin gün Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Tehranda İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşüb.




* * *

Noyabrın 1-də Tehranda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin üçtərəfli Zirvə görüşü keçirilib.

## Naxçıvan Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə və təhsilin inkişafındakı xidmətlərinə görə Naxçıvan Dövlət Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Əsgərova Qənirə İzzətulla qızı
Qulubəyli Şirməmməd Qüdrət oğlu
Mədətov Akif Vəli oğlu
Rəhimov Məmmədəli Həmzə oğlu
Rəhimov Rafiq Vilayət oğlu
Seyid Surə Namidar qızı
Zeynalov İsmayıl Əli oğlu

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

## Naxçıvan Dövlət Universitetinin müəllimlərinə fəxri adların verilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi ilə əlaqədar olaraq muxtar respublikada təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Allahverdiyev Əli Lazım oğluna
Cabbarlı Ələkbər Həsən oğluna
Eminov Mirhəsən Seyidəli oğluna
Eyvazov Seyfəddin İbrahim oğluna
Əliyev Akif Səttar oğluna
Əliyev Əkbər Nəbi oğluna
Əliyev Məmməd Həsən oğluna
Əsgərova Rəmziyyə Qəzənfər qızına
Hüseynov Yusif Hüseyn oğluna
Kəngərli İlqar İsmayıl oğluna
Quliyeva Ceyran Manaf qızına
Məmmədov Etibar Nəsrulla oğluna
Məmmədova İlhamə Mayıs qızına
Rzayev Vahid Məmməd oğluna
Süleymanov Əkbər Süleyman oğluna
Zeynalov Cavanşir İbrahim oğluna – **"Əməkdar müəllim"** fəxri adı;

İsmayılova Nəzakət Rza qızına – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı;

Tağıyev Əvəz Zeynalabdın oğluna – **"Əməkdar bədən tərbiyəsi və idman xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 noyabr 2017-ci il*

## Naxçıvan Dövlət Universitetinin əməkdaşlarına "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə və təhsilin inkişafındakı xidmətlərinə görə Naxçıvan Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına "Əməkdar müəllim" fəxri adı verilsin:

Hacıyev Məhəmməd Şahbaz oğlu
Hüseynov Allahverdi Yaqub oğlu
Maqsudov Elbəyi Sadıq oğlu
Məhərrəmova İnara Eldar qızı
Məmmədov Əbülfəz Məmməd oğlu
Nuriyev Mübariz Əsgər oğlu
Orucova Sevinc Vaqif qızı
Rəhimov Novruzəli Həmzə oğlu

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 31 oktyabr 2017-ci il*

## Elmi-nəzəri konfrans keçirilib

*Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə elmi-nəzəri konfrans keçirilib.*



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək müasir dövrdə Azərbaycan gənclərinin hərbi-vətənpərvərlik tərbiyəsi məsələsinin mühüm əhəmiyyət daşıdığını və bu mənada, gənc nəsli psixoloji, mənəvi baxımdan hərbi xidmətə hazırlamağın vacibliyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov "Çağırışaqədərki yaş həddində olan vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi" mövzusundakı məruzəsində əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu prosesindən danışıb. Qeyd olunub ki, son illərdə ordu quruculuğu istiqamətində görülən işlər, hərbi sənaye kompleksinin inkişaf etdirilməsi, Silahlı Qüvvələrin müasir əsaslarla komplektləşdirilməsi nəticəsində bu gün ölkəmizdə güclü və qüdrətli ordu formalaşıb. Xidmət rəisi onu da bildirib ki, görülən bu işlər çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan yaradır.

Dövlət Xidmətinin əməkdaşı, mayor Vüsal Əliyev "Azərbaycan Respublikası vətəndaşlarının həqiqi hərbi xidmətə çağırılması işinin təşkili", universitetin Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının baş müəllimi Cavanşir Zeynallı "Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi" mövzusunda məruzələrlə çıxış ediblər. Çıxışlarda gənclərdə vətənpərvərlik və dövlətçilik hisslərinin gücləndirilməsində onların hərbi-vətənpərvərlik tərbiyəsinin rolundan və bu sahədə həyata keçirilən kompleks tədbirlərdən danışılıb.

**Nərmin CABBAROVA**

***Bu il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə muxtar respublika Dövlət Energetika Xidmətinin qarşısında da mühüm vəzifələr qoyulmuş, konkret tapşırıqlar verilmişdir. Həmin tapşırıqların icrası çərçivəsində xidmət tərəfindən ardıcıl tədbirlər həyata keçirilmiş, qış mövsümünü mütəşəkkil başa çatdırmaq üçün elektrik stansiyalarında, yüksək və alçaq gərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılmışdır.***

## Qış mövsümündə enerji ilə təchizatda problemlər olmayacaq

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətindən aldığımız məlumata görə, 2017-ci ilin doqquz ayı ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 364 milyon 704 min 955 kilovat-saat elektrik enerjisi daxil olub. Bunun 30 milyon 651 min kilovat-saatı İran İslam Respublikasından alınıb, 57 milyon 132 min 500 kilovat-saatı Araz, 37 milyon 595 min 700 kilovat-saatı Biləv, 44 milyon 305 min kilovat-saatı "Arpaçay-1", 2 milyon 234 min kilovat-saatı "Arpaçay-2" Su, 243 min 355 kilovat-saatı Naxçıvan Qaz-Turbin, 159 milyon 672 min kilovat-saatı Naxçıvan Modul, 8 milyon 335 min 400 kilovat-saatı Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında, 24 milyon 536 min kilovat-saatı Naxçıvan Günəş Elektrik stansiyalarında istehsal edilərək elektrik şəbəkələrinə ötürülüb. Doqquz ay ərzində İran İslam Respublikasına 36 milyon 54 min kilovat-saat elektrik enerjisi verilib.

Hazırda İran İslam Respublikası ilə elektrik enerjisi mübadiləsi aparılır. Araz Su Elektrik Stansiyasında generatorlar 3-3,5, Naxçıvan Modul Elektrik Stansiyasında 36-37, Biləv Su Elektrik Stansiyasında 3-4, "Arpaçay-2" Su Elektrik Stansiyasında 0,1-0,2, Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında 0,6-0,7, Naxçıvan Günəş Elektrik Stansiyası 4-5 meqavat güclə işləyir. Muxtar respublikada istifadəçilərə fasiləsiz və keyfiyyətli elektrik enerjisi verilir.

2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq məqsədilə tədbirlər yüksək səviyyədə həyata keçirildiyindən oktyabr ayı ərzində elektrik enerjisi təchizatında heç bir çətinlik olmayıb.

Məlumatda o da diqqətə çatdırılır ki, muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərindən həmişə olduğu kimi, cari ildə də energetika təsərrüfatına pay düşüb. Belə ki, Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati idarə binası və 35/10 kilovoltluq yeni "Şahbuz" ikitransformatorlu 12600 kva güclü transformator yarımstansiyası tikilərək istismara verilib və bu məqsədlə 1 kilometr uzunluqlu 35 kilovolt və 11 kilometr uzunluqlu yeni 10 kilovoltluq elektrik xətləri çəkilib. İstismarda olan 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının layihə gücü daha 2 meqavat artırılaraq istismara verilib.

Bəhs olunan müddətdə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında, ümumilikdə, 148 ədəd 10/0,4 kilovoltluq transformator yarımstansiyası təmir edilib. Bu dövrdə Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 73 ədəd 10/0.4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb. Culfa rayonunda gələcəkdə külək elektrik stansiyası tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçü qurğuları quraşdırılıb. Hazırda ölçmə işləri aparılır.

İlin ilk doqquz ayı ərzində muxtar respublikanın şəhər və kəndlərində 16 ədəd 35/10 və 10/04 kilovoltluq transformator yarımstansiyası quraşdırılıb, 32,5 kilometr uzunluğunda 10 və 0.4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib, 7 kilometr uzunluğunda hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilib.

Muxtar respublikada bütün istifadəçilərin sərf etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib.

Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Son doqquz ay ərzində 4774 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 19520-yə çatdırılıb.

Elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir, əhali arasında maarifləndirici tədbirlər aparılır. Elektrik enerjisindən səmərəli istifadə edilməsinin zəruriliyi, elektrik xətlərində baş verə biləcək xoşagəlməz hadisələrin yaranmaması üçün əhalinin elektrik enerjisindən istifadə zamanı tələb olunan texniki göstəricilərə əməl etmələrinin vacibliyi izah olunur.

Həyata keçirilmiş tədbirlər belə deməyə əsas verir ki, muxtar respublikada qış mövsümündə elektrik enerjisi ilə təchizatda problemlər yaranmayacaq.

**Xəbərlər şöbəsi**

**Muxtar respublikada şoranlaşma və bataqlaşmanın qarşısının alınması, suvarma şəbəkələrinin genişləndirilməsi və mütərəqqi suvarma metodlarının tətbiqi bol məhsul istehsalı ilə yanaşı, torpaq və su ehtiyatlarından səmərəli istifadəyə də imkan verir. Qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Son illər Babək və Culfa rayonlarında 2220, Kəngərli rayonunda isə 717 hektar sahədə qapalı suvarma şəbəkəsi qurulub. Bu tədbirlərin davamı kimi oktyabr ayının 23-də Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.**

*Meliorasiya*

# Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsini muxtar respublikanın həyatında əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə istifadəçiləri təbrik edərək deyib: ***"Muxtar respublikada mütərəqqi suvarma metodları tətbiq olunur, qapalı suvarma şəbəkələri qurulur, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Son 5 ildə muxtar respublikada 3 min hektara yaxın sahədə qapalı suvarma şəbəkəsi quruləraq istifadəyə verilmişdir. Hazırda bu ərazilərdən bol məhsul götürülür. Bu gün istifadəyə verilən qapalı suvarma şəbəkəsi hesabına isə 407 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir... Qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması vacib məsələdir. Çünki muxtar respublika əhalisinin sayı ilbəil artır, həyətyanı torpaq sahələrində evlər tikilir. Bu da ərzaq təhlükəsizliyinin təmin olunması üçün yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasını zəruri edir".***

Bu istiqamətdə həyata keçirilən tədbirlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, komitənin tabeliyində olan təşkilatların üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələri yerinə yetirmək üçün melioratorlara hərtərəfli şərait yaradılıb. Bu şəraitdən səmərəli istifadə olunmasına səy göstərilir. Komitədən aldığımız məlumata görə, cari ilin ötən 9 ayı ərzində tabe təşkilatlar tərəfindən muxtar respublikamızda suvarılan torpaq sahələrinin genişləndirilməsi, ərazilərin şoranlaşmasının qarşısının alınması, əhalinin içməli suya olan tələbatının fasiləsiz ödənilməsi üçün tədbirləri yerinə yetirməklə bərabər, suvarma suyunun bölgüsünə, ondan səmərəli istifadə olunmasına nəzarət xeyli artırılıb. Belə ki, bəhs olunan dövrdə 194,59 kilometr beton və torpaq kanal, 353,47 kilometr ara arx, 33,76 kilometr kollektor lildən təmizlənib, 5,05 kilometr yeni açıq drenaj kanalı qazılıb, 2,19 kilometr yeni qapalı drenaj xətti çəkilib, 5,58 kilometr açıq drenaj kanalı və 0,68 kilometr qapalı drenaj xəttində təmir-bərpa işləri yerinə yetirilib. Həmçinin 53,10 kilometr yeni suvarma boru, 6,44 kilometr yeni içməli su xətləri çəkilib, 31,76 kilometr suvarma boru, 66,49 kilometr içməli su, 21,70 kilometr təzyiqli boru xətlərində, 2,34 kilometr kaptajda təmir-bərpa, kanallarda su itkisinin qarşısını almaq məqsədilə davamlı olaraq lildən təmizləmə işləri yerinə yetirilib.

Bir neçə statistik rəqəmə diqqət yetirək. Babək rayonunun Payız kəndində aparılan yenidənqurma işləri ilə əlaqədar olaraq və kanalda su itkisinin qarşısını almaq məqsədilə Cəhri göllərinə su gətirən kanalın 280 metr hissəsinin yeri dəyişdirilərək yeni kanal qazılıb və beton panellərlə üzlənib. Ordubad rayonunun Aşağı Əylis kəndinin əkin və həyətyanı sahələrinə suvarma suyunun verilməsini yaxşılaşdırmaq üçün 800 metr yeni suvarma arxı qazılıb, "Qazi massivi" adlanan əraziyə 3 kilometr yeni kanal, Şahbuz rayonunda Daylaqlı kəndinə su aparan arxın Şahbuz şəhər çirkab sutəmizləyici qurğu tikilən ərazidən keçən hissəsinə metal borularla 150 metr qapalı suvarma xətti çəkilib.

Babək rayonunda 8,29, Şahbuz rayonunda 15,1, Culfa rayonunda 76,26, Ordubad rayonunda 26,6, Sədərək rayonunda 5,3, Kəngərli rayonunda 2,24 kilometr beton və torpaq kanal lildən təmizlənərək işlək vəziyyətə gətirilib.

Komitə tərəfindən suvarılan ərazilərin şoranlaşmasının qarşısını almaq üçün bunu törədən səbəblərə qarşı tədbirlər hazırlanıb, sahələrə suvarma normaları daxilində su verilib, filtrasiyaya sərf olunan su itkilərini azaltmaq üçün açıq və qapalı drenajlarda, kollektorlarda lildən təmizləmə işləri yerinə yetirilib, yeni açıq və qapalı drenaj xətləri çəkilib. Belə ki, Şərur rayonunda 15,5, Babək rayonunda 11,26, Sədərək rayonunda 7 kilometr kollektor lildən təmizlənib, Babək rayonunda 5,58 kilometr açıq drenaj kanalında, Şərur rayonunda 0,57, Babək rayonunda 0,11 kilometr qapalı drenaj xəttində təmir-bərpa işi yerinə yetirilib. Şərur rayonunda 0,13, Babək rayonunda 2,06 kilometr yeni qapalı və 2,19, Culfa rayonunda 0,58, Kəngərli rayonunda 2,28 kilometr uzunluğunda yeni açıq drenaj kanalları çəkilib.

Culfa rayonunun Əbrəqunus kəndi ərazisində 580, Babək rayonunun Pircuvar sahəsində 600, Vayxır kəndi ərazisində isə 150 metr yeni açıq drenaj kanalı qazılıb. Kəngərli rayonunda yol kənarındakı yaşıllıq ərazilərinin qrunt sularından təmizlənməsi üçün 2,28 kilometr yeni açıq drenaj kanalı qazılıb.

Görülən bütün bu işlər nəticəsində Şərur rayonunda 730, Babək rayonunda isə 613,65 hektar ərazidə qrunt sularının səviyyəsi aşağı salınıb.

Bəhs olunan dövrdə sahilbərkitmə və selə qarşı istiqamətləndirici bəndlərin çəkilməsi də diqqətdə saxlanılıb. Belə ki, yaşayış məntəqələrini və əkin sahələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Şərur rayonunun Arpaçay selovunda 6,3, Babək rayonunun Naxçıvançay vadisində 7,2, Cəhriçay vadisində 7,5, Qahab selovunda 2,9, Sirab selovunda 0,7 kilometr selə qarşı istiqamətləndirici bənd tikilib.

Babək rayonunun Payız kəndində yenidənqurma işləri ilə əlaqədar olaraq kəndin içərisindən keçən Cəhriçayın hər iki sahilində selə qarşı 1500 metr bənd tikilib.

Muxtar respublika ərazisində əhalinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə bir sıra işlər görülüb. Belə ki, bəhs olunan dövr ərzində Şərur rayonunda 0,70, Babək rayonunda 3,12, Şahbuz rayonunda 0,60, Culfa rayonunda 0,02, Ordubad rayonunda 2 kilometr yeni içməli su xətti çəkilib, Şərur rayonunda 14,96, Babək rayonunda 6,55, Şahbuz rayonunda 3,7, Culfa rayonunda 7,91, Ordubad rayonunda 28,6, Kəngərli rayonunda 4,55, Sədərək rayonunda 0,22 kilometr içməli su xətti təmir-bərpa olunub.

Şahbuz rayonunun "N" hərbi hissəsinin içməli su təminatını yaxşılaşdırmaq üçün 700, Ordubad rayonunun Üstüpü kəndində 1500, Babək rayonunda 1100, Şərur rayonunun Qarahəsənli kəndində 600 metr olmaqla, ümumilikdə, 6,44 kilometr yeni içməli su xətti çəkilib, 66,49 kilometr içməli su xəttində təmir-bərpa işləri aparılıb.

Ordubad rayonunda Aza kəndinin içməli su kaptajının 150 metr hissəsi bərpa olunub, Düylün kəndində əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün 9 yerdə supaylayıcı çən quraşdırılıb. Kaptajın yenidən qurulması işi davam edir.

Muxtar respublikada ilin ilk 9 ayı ərzində təmir-bərpası bitmiş 9 kəhrizdə və təmir-bərpası aparılan 6 kəhrizdə 266,5 metr quyuda təmizləmə işi həyata keçirilib. 450 metr saybənd hörülüb, 125 metr quyuda hörgü işi aparılıb, 6149 metr kürə lildən təmizlənib, 26 yeni quyu qazılıb və müxtəlif diametrli borularla 2290 metr suaparıcı xətt çəkilib, suvarma və içməli su mənbəyi kimi istifadə olunan 608 subartezian quyusunun 41-nə subartezian nasosu quraşdırılıb.

Bu dövrdə komitəyə və tabe təşkilatlara məxsus müxtəlif markalı texnikaların təmirinə ciddi önəm verilib. Belə ki, Maşın-Mexanizmlərin və Hidrotexniki Qurğuların Təmiri və Texniki Nəzarət İdarəsinin təmir sexlərində müxtəlif markalı 11 avtomaşın, 5 avtokran, 2 buldozer, 8 elektrik mühərriki, 1454 su sayğacı, 20 subartezian nasosunun elektrik mühərriki, 9 nasos rotoru, 12 əks klapan, 4 vakuum nasos, 5 siyirtmə, 725 nasos hissəsi, 1 ədəd nasos təmir olunub.

"Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində də işlər davam etdirilib. Hazırda Naxçıvan şəhərində çirkab sutəmizləyici qurğunun tikintisi aparılır. Qurğuda lazım olan avadanlıqların quraşdırılması başa çatıb, asfalt yol salınıb, ərazidə abadlıq işləri görülüb.

Cari ilin 9 ayı ərzində Şərur rayonunda 3 su anbarı izolyasiya olunub, ətrafı doldurulub və siyirtmə quyuları tikilib. Su anbarlarından Şərur şəhərinə qədər aparıcı boru xəttindən 2,03, daxili su şəbəkəsindən 24,36 kilometr xətt çəkilib, 1030 ev birləşməsi aparılıb. Müxtəlif diametrli borularla 20,5 kilometr kanalizasiya xətti çəkilib, 207 ev kanalizasiya şəbəkəsinə qoşulub. Layihə çərçivəsində rayonda, ümumilikdə, 58,39 kilometr su xətti çəkilib, 1539 ev birləşməsi aparılıb. Şahbuz rayonunda Şahbuz şəhər çirkab sutəmizləyici qurğunun ətrafında 220 metr istinad divarı tikilib, hovuz ətrafında 180 metr drenaj xətti çəkilib. Ordubad rayonunda su anbarları izolyasiya olunub, ətrafı doldurulub, siyirtmə quyuları və nasos binası tikilib. 18 subartezian quyusu qazılıb. Babək rayonunun Şıxmahmud kəndində 13 ev su və kanalizasiya şəbəkəsinə qoşulub.

O da vurğulanmalıdır ki, belə tədbirlər həm də payız-qış mövsümünün mütəşəkkilliklə keçirilməsinə imkan verəcək. Bu səbəbdən də cari ilin 9 ayını muxtar respublikanın su və meliorasiya təsərrüfatı işçiləri üçün uğurlu dövr hesab etmək olar. Bu müddət ərzində görülən işlər həmin sahənin normal fəaliyyətinə göstərilən dövlət qayğısı olmaqla yanaşı, həm də muxtar respublikada etibarlı ərzaq təminatının yaradılmasına hədəflənib. Ərzaq təsərrüfatında isə başlıca amillərdən biri torpaqlardan səmərəli istifadə olunmasıdır ki, bu işdə su ilə təchizat mühüm rol oynayır. Ali Məclis Sədrinin dediyi kimi: ***"Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir. Eyni zamanda bu, insanlara həyat vermək deməkdir. Çünki bol məhsul istehsalı muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, həm də əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasına xidmət edir".***

**Muxtar MƏMMƏDOV**

*Müasirləşən kəndlərimiz*

# Səfalıdır, füsunkardır Əndəmic



***Ordubad Azərbaycanın dilbər guşələrindəndir. Möcüzəli təbiəti və füsunkar gözəlliyi ayrı-ayrı vaxtlarda buraya gələn bir sıra səyyahları təəccübləndirib. Bu qədim yurd yerimiz gursulu kəhrizləri, çayları, tarixi körpüləri, çeşmələri ilə yanaşı, səfalı kəndləri və insanların özünəməxsus ləhcəsi ilə də seçilib. Bu payız günlərinin birində biz də yol aldıq rayonun gözəl və səfalı yaşayış məntəqələrindən biri olan Aşağı Əndəmic kəndinə.***

Aşağı Əndəmic kəndi rayon mərkəzinə çox yaxın, cəmi 5 kilometrlik bir məsafədə yerləşir. Dağlarla əhatələnən kənd Dübəndi çayının sol sahilində qərar tutub. Təmiz küçələri, səliqə-sahmanlı həyətləri, mehriban, səmimi və qonaqsevər insanları, bir də limonu, xırnik bağları ilə də tanınır bu kənd. Sanki bir rəssamın yaratdığı tablodur. Füsunkar təbiəti, insanlarının qonaqpərvərliyi bu elimizin gözəlliyidir. Doğrudan da, yurdumuzun hər dərəsini, hər yamacını, hər zirvəsini təbiət elə yaradıb ki, baxdıqca doymaq olmur hüsnündən. Uzaqdan döyüşdən qalib çıxmış igidə bənzəyən əsrarəngiz Bəlkə dağının əzəməti, qaməti aydın görünür buralardan.

Aşağı Əndəmic kəndində yaşayış evlərinin də quruluşu fərqlidir. Çiy kərpicdən tikilmiş şüşəbəndli evlər boy vermiş ağaclar arasında göz oxşayır. Bu yaşayış məntəqəsi zəngin mətbəxi, naz-nemətlərlə dolu çay süfrələri ilə də tanınır. Hər eldə olduğu kimi, burada da insanlar artıq qışa hazırlıq görür, dadlı mürəbbələr, turşular hazırlayır, əriştə kəsirlər.

Kənddə yaşayan əhalinin əsas məşğuliyyəti isə, demək olar ki, limonçuluq və bağçılıqdır. Buranın münbit iqlim şəraiti və məhsuldar torpağı keyfiyyətli limon yetişdirməyə imkan verib. Bu səbəbdən demək olar ki, kənddə evlərin hər birində limon dibçəklərinə rast gəlmək mümkündür. Əndəmiclilər bu sahəni əsas gəlir mənbəyinə çeviriblər. Limon bəzi həyətlərdə istixana şəraitində də becərilir. Təcrübəli limonçular deyirlər ki, dibçək limonu istixanada becərilən limondan daha dadlı olur. Kənddə limonla bağlı maraqlı adət-ənənələr yaranıb. Limonu sahibindən başqası dərə bilməz, paklıq sevən bitkidir, limon saxlanılan otağın havası təmiz olmalıdır. Gəlin köçən qızlara cehiz olaraq limon dibçəyi də verirlər, qonaq-qara gələndə ən əziz bir nemət kimi mürəbbəli, limonlu çay süfrələrin bəzəyinə çevrilir. Kənddə son vaxtlar xırnik meyvəsini də mühitə uyğunlaşdırıb geniş şəkildə becərən bağbanlar var. Nadir Məmmədov, Əmir Cəfərov bu sahədə yaxşı təcrübə qazanıblar. Oktyabr ayının sonunda tam yetişən bu meyvə olduqca məhsuldardır.

Bir sözlə, Aşağı Əndəmicdə gəlirli təsərrüfat sahələrindən birinə çevrilən meyvəçiliyin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır.

Ərbab çeşməsi, Dübəndi çayı kənd sakinlərinin təsərrüfat suyuna olan ehtiyacını ödəyir. Kənddə hektarlarla meyvə bağı vardır. Meyvəçiliklə məşğul olan bağbanlar becərdikləri bağlardan hər il bazara xeyli məhsul çıxarıb yaxşı qazanc əldə edirlər.

Vətən müqəddəsdir, ülvidir. Onun hər dağı, daşı, torpağı, suyu, səması bizim üçün əzizdir, doğmadır. Evimiz, kəndimiz, obamız bu torpaqlardadır. Aşağı Əndəmic kəndində yaşayanlar da – qocasından tutmuş cavanınadək hər kəs bütün qəlbilə ana ocağına, ata yurduna, elinə, obasına bağlıdır. Bunu 92 yaşlı Fazil Əsədovun yaşadığı ömür yolu da təsdiq edir. 65 illik ömür-gün yoldaşı Zəri nənə ilə xoşbəxt bir ailə səadəti yaşayan Fazil əminin 5 övladı, 15 nəvəsi, 19 nəticəsi var. Deyir ki, ailə müqəddəsdir, ailənin xoşbəxtliyi, uzunömürlü olması üçün birinci şərt mehribanlıq və bir-birini başa düşməkdir. Mehribanlıq gözəl şeydir, harada mehribanlıq, birlik var, orada ruzi-bərəkət var. Fazil əmi müharibə əlili olsa da, yaşının bu çağında belə qurub-yaratmaqdan doymur, vaxtını boş keçirmir. O, həyətyanı təsərrüfatında gözəl bağ-bağça salıb.

Ən yaxşı günlərimiz indi başlayıb, – deyir, – Naxçıvan şəhərini, rayon və kəndlərimizi tanımaq olmur, o qədər dəyişilib, gözəlləşib ki. İndi hara istəsən, rahat gedib-gələ bilərsən.

Aşağı Əndəmic kəndində sənətkarlar da çoxdur. Xarratlıq sənəti bu kənddə çox geniş yayılıb. 48 yaşlı İsmayıl Əliyev da uzun müddətdir, bu işlə məşğuldur. Deyir ki, xarratlıq səbir və dözüm tələb edir. Qapı, pəncərə və müxtəlif növ aksesuarlar hazırlayan ustaya yaxın kəndlərdən də müraciət edib sifariş verənlər çox olur. O həm də öz ailə təsərrüfatını yaradıb. Meyvəçilik, tərəvəzçilik və tingçiliklə məşğuldur. Yerli meyvə sortlarının itib-batmasına yol vermir. Şaftalı, alma, armud tingləri yetişdirir.

Bu kəndə gələn gözəlliyin ovsununa düşür. İnsanların səmimiyyətini, onların qonaqpərvərliklərini, torpağa bağlılıqlarını görür, ruhu təzələnir. Gəlsəniz, siz də görərsiniz...

**Türkanə ƏMOYEVA**
***Naxçıvan Dövlət Radiosunun redaktoru***

Naxçıvanın İslam mədəniyyəti abidələri

# Naxçıvan məscidləri: mənəviyyat məbədlərimiz



***Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının və intibahının əsas mərkəzlərindən biri olmuş, İslam dininin maddi və mənəvi irsinin formalaşmasında yaxından iştirak etmişdir. Bu dinin yayılması və təbliğində mühüm vasitələrdən biri məscidlər olmuşdur. İslam mədəniyyətinin qiymətli abidələrindən sayılan məscidlər, tarixən bu dinin daşıyıcıları üçün elm, maarif ocağı sayılmaqla yanaşı, həm də mənəvi kamilləşmə, birlik, həmrəylik, sevgi, yardımlaşma kimi dəyərlərin təbliğ olunduğu əxlaq tribunası rolunu oynamışdır.***

Ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvanda da məscid tikintisinin başlanğıcı burada İslam dininin yayılması dövrünə təsadüf edir. Bununla yanaşı, Naxçıvan şəhərində bizə məlum olan ilk məscid nümunəsi XII əsrdə şəhərdə tikilmiş Cümə məscididir. Vaxtilə Atabəylər memarlıq kompleksinə daxil olan bu məscidi Naxçıvanda dini-memorial tikililərin ən gözəl nümunələrindən biri hesab edirlər. Ümumilikdə götürsək, muxtar respublikada istər cümə, istərsə də məhəllə məscidlərinin xeyli hissəsinin tikintisi XVI əsrin sonu, XVII əsrin əvvəllərində və XVIII əsrin ilk onillikləri dövrünə aid edilir. Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradovun "Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)" adlı monoqrafiyasında qeyd olunur ki, XVI əsrin sonu, XVII əsrin əvvəllərində Naxçıvan şəhərində adıçəkilən Cümə məscidindən əlavə, "Məhmət kətxuda", "Cameyi-Şərif" adlı cümə məscidləri də fəaliyyət göstərmişdir. Elə həmin dövrdə Naxçıvan şəhərində "Ağa məscidi", "Hacı Xəlil məscidi", "Keçəçi məscidi", "Molla Əhməd məhəlləsinin məscidi", "Bəsri məscidi", "Şeyx Əminəddin məscidi", "Hacı Sani məscidi" adlı məscidlər də mövcud olmuşdur.



Təbii ki, Naxçıvan diyarındakı məscidlər bura yolu düşən səyyahların qeydlərində də öz əksini tapmışdır. Məsələn, Naxçıvan şəhərində tikilmiş məscidlər haqqında Övliya Çələbi daha müfəssəl məlumat verərək bildirir ki, XVII əsrin ortalarında burada 40 məscid fəaliyyət göstərirdi. Səyyah burada tikilmiş məscidlərə heyranlığını isə belə ifadə etmişdir: "Naxçıvanın qəribə cümə məscidləri vardır ki, onların əksəriyyəti şirli, bəzəkli kaşılar, rəngarəng şüşələrlə bəzədilmişdir. Neçəsinin yarımdairə şəklində çatılmış tavan günbəzləri şirli kaşılarla bərkidilmişdir".



Burada bir haşiyə çıxaraq qeyd edək ki, Naxçıvanda, eləcə də ölkəmizin digər bölgələrində rast gəlinən məscid və tarixi tikililərdə müxtəlif həndəsi formalara malik bəzəkli kaşılardan, rəngli şüşələrdən istifadə olunması Səfəvi miniatür sənətinin yüksək inkişafının nəticəsi olaraq milli memarlıq nümunələrimizdə də öz əksini tapmışdır. Bu təsir sonrakı dövrlərdə Osmanlı memarlığında da hiss olunur.

Professor Vidadi Muradov adıçəkilən monoqrafiyasında yazır ki, Naxçıvan şəhərində cümə məscidlərinin tikintisi Azərbaycanın Rusiya tərəfindən işğalından sonra da davam etdirilmişdir. Belə məscidlərdən biri ümumi sahəsi 1000 kvadratmetr olan "Cəfəriyyə məscidi"dir. Uzun müddət Naxçıvanın ictimai-siyasi və ideoloji mərkəzlərindən biri olmuş məscidin tikintisi 1894-cü ilə aid edilir. "Cəfəriyyə məscidi" sovet hakimiyyəti illərində Naxçıvan diyarında fəaliyyət göstərmiş yeganə məscid olmuşdur. Giriş qapısının baş tərəfində yerləşdirilmiş kitabədən aydın olur ki, memarı Məhəmməd Təqi olan məscid "naxçıvanlı Hacı Novruzun oğlu Xeyrül-Hac Məhəmməd Cəfər ağanın səyi ilə bina edilmişdir". Professor kitabda bildirir ki, məscid tikintisi Ordubad şəhərində də intensiv aparılmışdır. Tədqiqatçı göstərir ki, Ordubaddakı məscidlərin sayı haqqında ayrı-ayrı mənbələrdə fərqli rəqəmlər var. Belə ki, XIX əsrin 30-cu illərində tərtib edilmiş "Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı"nda Ordubadda 63 məscidin fəaliyyət göstərdiyi qeyd olunur. Təxminən elə həmin dövrdə tərtib edilmiş başqa bir mənbədə isə burada 6 böyük, 25 kiçik məscidin olması haqqında məlumat verilir. Ordubad şəhərinin tarixini tədqiq etmiş A.S.Fərəcovun əsərində də buradakı məscidlərin sayı haqqında fərqli məlumatlara rast gəlinir. Məscidlərin sayının çoxluğuna heyrətlə yanaşan müəllif yazır: "Çətin ki, müsəlman dünyasında 3-4 min insana 41 məscid, daha doğrusu, hər 100 nəfərə 1 məscidin düşdüyü başqa bir şəhər tapılsın. Burada ümumşəhər və məhəllə məscidlərindən başqa daha 35 kiçik məscid var idi".

Ordubad şəhərindəki Cümə məscidi haqqında V.M.Sısoyev yazırdı ki, şəhərdə ən böyük məscid olan Cümə məscidi şəhərin lap mərkəzində, demək olar ki, düz bazarın içində tikilmişdir. Məscid bir qədər hündürlükdə yerləşdiyindən onu uzaqdan və çox yerdən görmək mümkündür. Böyük, demək olar ki, kvadratşəkilli, yastı damlı bina olan məscidin 6 kiçik günbəzi olsa da, minarəsizdir. Hündürlüyü içəridən 4 metr olan məscidin döşəməsi daş lövhələrlə döşənmişdir. Məscidin əsas girişinin qarşısında hovuzu olan kiçik düzbucaqlı bina tikilmişdir. Bu məscidin tikilmə tarixi dəqiq məlum olmasa da, onun XVII əsrdən xeyli əvvəl bina olunduğu şübhə doğurmur. Səfəvi hökmdarı I Şah Abbasın Ordubad əhalisinin xəzinəyə ödəyəcəyi vergilərdən azad edilməsi haqqında 1604-cü ildə verdiyi fərmanın mətni məhz bu məscidin giriş qapısının baş tərəfinə yerləşdirilmiş kitabəyə həkk olunmuşdur.



Ordubad şəhərindəki "Təkeşiyi" (şiə təkyəsi) məscidi də status baxımından Cümə məscidi olmuşdur. Mütəxəssislərin fikrincə, tikintisi xeyli qədimlərə aid olan məscid hicri təqvimi ilə 1921-ci ildə bərpa olunmuşdur. Sufi dərvişlərinin əsas mərkəzlərindən biri olan bu məscidi "İrfan əhlinin səcdəgahı" kimi yüksək qiymətləndirmişlər. Bundan əlavə, Ordubad şəhərində xeyli sayda məhəllə məscidləri də inşa olunmuşdur. Ambaras, Kürdətal, Mingis, Sərşəhər, Üçtərəngə məhəllələrində tikilmiş məscidlər məhəllə məscidi funksiyasını yerinə yetirmişdir.



Ümumilikdə, Naxçıvanda hələ uzaq keçmişdən xeyli sayda kənd və məhəllə məscidləri tikilmişdir ki, bu məscidlər, əsasən, kiçikölçülü olması və yaşayış evlərindən bir az fərqlənməsi ilə diqqət çəkir. Bir qayda olaraq birotaqlı tikilən belə məscidlər giriş qapısı və şəbəkə üsulu ilə bəzədilmiş pəncərələrə malik olurdular. Belə məscidlər, adətən, məhəllənin mərkəzi meydanlarında inşa olunurdu. Ordubaddakı Sərşəhər məhəllə məscidi isə Azərbaycanın digər şəhərlərində inşa edilmiş məhəllə məscidlərindən ikimərtəbəli olması ilə fərqlənir. Bu məscidin birinci mərtəbəsi kişilərin, ikinci mərtəbəsi isə qadınların ibadət etməsi üçün nəzərdə tutulmuşdur. Qadınların ikinci mərtəbəyə qalxması üçün çöl tərəfdən dolama pilləkən qoyulmuşdur. XVIII əsrdə inşa olunduğu ehtimal olunan məscid hazırda da dindarların istifadəsindədir.

Bu gün muxtar respublikamızın hansı bölgəsinə üz tutsaq, yaşı yüz ildən artıq çoxsaylı məscid binaları ilə rastlaşarıq. Bu da onunla bağlıdır ki, Naxçıvanda İslam dininin yayılmasından sonra məscid binalarının tikilmədiyi yeganə dövr sovet hakimiyyətinin burada bərqərar olduğu dövrdür. Ötən əsrin sonlarında, müstəqilliyimizin bərpasından sonrakı dövrdə isə tarixən milli və mənəvi dəyərlərə həssaslıqla yanaşan muxtar respublikada yeni məscid binaları tikilmiş, köhnə tikililərin böyük əksəriyyəti əsaslı şəkildə yenidən qurulmuş, təmir olunmuşdur. Bu prosesdə həm xalqın, həm də dövlətin təşəbbüsü üst-üstə düşmüşdür.

***Sevindirici haldır ki, bu gün muxtar respublikada fəaliyyət göstərən məscidlərdə heç bir məzhəb ayrılığına yol verilməyərək insanların ibadət azadlığı təmin olunur. Qarağuruhçu zehniyyətdən və mövhumatdan fərqli olaraq hər kəs dinimizin buyurduğu ayinlərin icrasında sərbəst iştirak edə bilər. Onu da xatırladaq ki, Naxçıvandakı məscidlər İslam mədəniyyətinin qiymətli abidələri kimi də diqqətçəkicidir. Bu isə 2018-ci ildə İslam mədəniyyətinin paytaxtını görməyə gələnlərə bu abidələrin təqdimatı haqqında ətraflı məlumatlar vermək imkanı yaradacaq. Hazırda Naxçıvan şəhərində 2000 nəfərin eyni anda ibadət edə biləcəyi yeni məscid binasının tikilməsi isə dini-mənəvi dəyərlərin qorunub yaşadılması və düzgün təbliği baxımından həyata keçirilən dövlət siyasətinin mahiyyətini təşkil edir. Bir sözlə, keçmişdə olduğu kimi, bu gün də Naxçıvan məscidləri hər birimiz üçün mənəviyyat məbədləri rolunu oynayır.***

Səbuhi HƏSƏNOV

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini oktyabr ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

## Səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində Şərur rayon Qarahəsənli kənd feldşer-mama məntəqəsi əhalinin istifadəsinə verilib.

Səhiyyə sistemində kadrların bilik və bacarıqlarının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. Ötən ay 6 həkim Türkiyə Respublikası İzmit Kocaeli Universitetinə, 5 həkim və 2 həkim-rezident Ankara Qazi Universitetinə, 5 həkim və 2 orta tibb işçisi Bakı şəhər tibb müəssisələrinə, 9 orta tibb işçisi Naxçıvan şəhər tibb müəssisələrinə iş yerində təcrübəyə, 125 orta tibb işçisi Tibb Kollecinə tibb bacısı və vaksinator ixtisası üzrə kurs keçməsi üçün göndərilib.

Oktyabr ayında orta tibb işçilərinin sertifikasiya imtahanı keçirilib, imtahanda iştirak edən 156 orta tibb işçisinin 81 nəfəri uğurlu nəticə qazanıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan İmplantoloq İctimai Birliyinin təşkilatçılığı ilə "Stomatologiyada multidissiplinar yanaşma" mövzusunda elmi-praktik, Milli Oftalmologiya Mərkəzinin direktoru, AMEA-nın müxbir üzvü, professor Elmar Qasımov və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin iştirakı ilə Azərbaycan oftalmoloqlarının "Müasir oftalmologiya elminin inkişafı, nailiyyətlər və problemlər" mövzusunda IV regional konfransları keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafındakı fəaliyyətinə görə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edib. Fəxri Fərman Milli Oftalmologiya Mərkəzinin direktoru Elmar Qasımova təqdim olunub.

Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında Beynəlxalq Həkimlər Gününə həsr olunmuş tədbir keçirilib. Əmək fəaliyyətində xidmət və uğurlarına görə 6 tibb işçisinə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin fəxri fərmanları təqdim edilib.

Təhsil müəssisələrində şagirdlərin pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən kütləvi müayinəsinə başlanılıb. 28 min 329 nəfərdə müayinə aparılıb, 1802 nəfər dispanser qeydiyyata alınıb.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkim briqadaları tərəfindən 87 nəfər müayinələrə cəlb olunub, 11 nəfərdə katarakt əməliyyatı yerinə yetirilib.

Muxtar respublikanın Səhiyyə Nazirliyi irsi qan xəstəliklərindən əziyyət çəkən və qan köçürülməsinə ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə olunmaq üçün könüllü qanvermə aksiyalarının təşkilini davam etdirib. Aşura günü ilə əlaqədar rayon və şəhər məscidlərində 545 nəfərdən 217,5 litr qan tədarük olunub.

Ötən ay ərzində 13 nəfər Bakı şəhərinin Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 39 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 14 nəfər müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yurdumuzun nemətləri

# Ordubadın meyvəçilik ənənələri qışda süfrələrimizin zənginliyini təmin edir

***"Azərbaycanın incisi" kimi tanınan Ordubad rayonunda əhali təzə meyvələrdən ehtiyat ərzaq məhsulları kimi qış üçün də tədarük edib. Armuddan, ərikdən, almadan qax, şaftalının xüsusi növü olan nazlı şaftalıdan alana, miyanpur, cəvizdən sucuq, alçadan çırtma və sair hazırlayıblar.***



Onu da qeyd edək ki, meyvələrin qurudulması, onlardan müxtəlif çeşiddə yemək növlərinin hazırlanması xüsusi qaydalara əsaslanır. Məsələn, uzun illər bu işlə məşğul olan və əsas qazancını meyvələrdən çıxaran Nurəddin Səfərov deyir ki, meyvələrin ehtiyat ərzaq məhsulu kimi tədarükünün ən münasib yolu onların qurudulmasıdır. Bildirir ki, meyvəçilikdə əsas işlərdən biri məhsulun toplanması və saxlanılmasıdır. Qurudulmaq üçün yığılan meyvələr elə yığılmalıdır ki, onlar əzilməsin. Belə ki, alma, armud, nar, heyva və digər meyvələri bir-bir yığmaq lazımdır. Bu üsula ordubadlılar "dəstəçin" deyirlər. Meyvə xüsusi qayda ilə qablara yığılar, altına quru ot döşənər. Daha uca, əlçatmaz ağacların meyvəsi isə "koqar" adlı alət vasitəsilə toplanar. Belə ki, insanlar əlçatmaz budaqdakı armudları bir-bir koqarın qarmağına ilişdirər, sonra onu buraraq saplağı qırıb armudu qaba salarlar.

Nurəddin Səfərov deyir ki, meyvələrin yığılma və saxlanılması qaydalarını mənə atam öyrədib. Qurudulmuş meyvə ticarəti ilə məşğul olan həmsöhbətim onu da qeyd edir ki, onların ata-babadan qazanc yeri elə bu iş olub. Meyvələrin qurudulması prosesi haqqında məlumatı isə bizimlə belə bölüşür. O deyir ki, meyvələrin qurudulması iki üsulla həyata keçirilir: birincisi, günəş şüaları altında, ikincisi isə təndirdə, gillədə (təndirdə meyvə qurutmaq üçün gildən və palçıqdan hazırlanmış xüsusi qab) qurutmaqdır. Meyvələrin qurudulmasının ən sadə və qədim üsulu onları gün işığında qurutmaqdır. Bu üsuldan geniş istifadə olunub. Yığılmış meyvələrdən alma, armud və digər meyvələr doğranmış, çəyirdəkli meyvələr isə bütöv halda gün düşən yerə sərilir. Əvvəllər Ordubadda meyvə qurudulması üçün təndir və meyvəqurudan kürələrdən də istifadə olunardı. Meyvə qurudulması üçün istifadə edilən təndirlər adi çörəkbişirmə təndirlərinə bənzəyər, ancaq böyüklüyü ilə fərqlənərdi. Meyvə qurutmaq üçün hazırlanan təndir, çörək təndirindən iki dəfə böyük olardı. Belə təndirlər xüsusi ustalıqla hazırlanar, tez soyumaması üçün yanları odadavamlı qırmızı kərpicdən tikilərdi. Təndirin qızdırılması üçün onun içərisində ocaq qalanardı. Odun yanıb közləndikdən sonra, közü təndirin ortasına yığıb tayalayırdılar. Burada közlənməmiş odun qalmamalı idi. Əks-təqdirdə alışıb təndirdəki bütün meyvələri yandıra bilərdi.

Adətə görə, hər bir ailənin 50-dən 100-dək gilləsi olardı. Təndir qızdırılanadək gillələr meyvə ilə doldurulardı. Hər gilləyə iki kiloqrama qədər meyvə yığılar, təndirə xüsusi qayda ilə düzülərdi. Dörd-beş gillə üst-üstə qoyulduqdan sonra təndirə çarbənd qoyulardı. Çarbənd dörd ədəd ağacdan ibarət olub, təndirin üst tərəfində çarpaz şəkildə onun divarlarına bərkidilərdi. Bundan sonra meyvə ilə dolu gillələr çarbənd ağaclarının üstünə düzülərdi. Təndir gillə ilə doldurulduqdan sonra ağzı bağlanardı. Ancaq iki gündən sonra təndiri açıb, meyvənin quruması yoxlanılardı. Əgər meyvə tam qurumasaydı, bu halda köz qarışdırılardı.

Meyvəqurudan kürə isə bir-birinə paralel olan iki iridiametrli kanaldan ibarət idi. Bu kanalların ön hissəsində gildən hörülmüş dairəvi kürələrdə ocaq qalanardı. İstisi kanalların digər ucuna tərəf yayılardı. Kanalların üst hissəsinə kiçikdiametrli ağaclar döşənərdi. Döşəmənin üzərinə meyvə tökülər və aşağıdan qalxan isti hava meyvələri qurudardı. Bu yolla alınan meyvə qurusuna "qax" deyilir. Qax qurutmaq üçün, əsasən, şirəli armud növləri seçilərdi. Abasbəyi, Şaftalı, Surxayı, Həmzəyi kimi armud növləri qax üçün ən münasibləri sayılardı. Bu armudlardan hazırlanan qax heç vaxt tam qurumaz və öz yumşaqlığını qış boyu saxlayardı. Əhali müxtəlif meyvə qurularından çərəz kimi istifadə edər, qonum-qonşuya, dost-tanışa pay verərdi. Ordubadda belə bir adət də vardı ki, alana, miyanpur, meyvə qurusu kimi çərəzlər gəlin köçən qızlarımızın sandığına qoyular, həmin təamlar bəy xonçalarını bəzəyərdi.

Nurəddin Səfərov onu da qeyd edir ki, ta qədimdən qax, kişmiş, alana, sucuq, miyanpur, habelə cəviz ləpəsi, fındıq, badam, püstə, iydə kimi çərəzlər Ordubad süfrələrinin bəzəyi olub. Onu da əlavə etdi ki, hər bir meyvənin qurudulma müddətində və eləcə də üsulunda müəyyən fərqlər var. Belə ki, əncirin qurudulması üçün onu quru otun və ya samanın üzərinə töküb 3-5 gün gün düşən yerdə saxlayırlar. Əncirin qurudulmasının başqa bir üsulu isə onun qabığını soyub, sonra günə verməkdir. Bu üsulla alınan əncir qurusuna "piskəndə" deyilir. Bu daha keyfiyyətli çərəz hesab olunur.

Heyvanın, almanın qurudulma müddəti 5-10, əriyinki 20-25, gilənarınkı isə 10 gün hesab edilir. Şaftalının qurudulması üçün onun çəyirdəyi çıxarılır. Çünki Ordubadda şaftalı qurusundan daha çox alana hazırlamaq üçün istifadə olunur. Alana isə çəyirdəyi asanlıqla çıxa bilən nazlı şaftalı növündən hazırlanır.

Alananın hazırlanması haqda isə bizə Nurəddin Səfərovun ömür-gün yoldaşı Asya xanım məlumat verdi. Asya xanım deyir ki, alana, əsasən, nazlı şaftalı və şəkəri armud növlərindən hazırlanır. Qabığı soyulmuş meyvə tənzifə bükülüb 2-3 gün günəş şüaları altında saxlanılır. Sonra armud və ya şaftalının çəyirdəyi çıxarılaraq cəviz ləpəsinin şəkər tozu ilə qarışığından hazırlanmış içlə doldurulur. Ağızları isə həmin meyvələrdən hazırlanan qapaqla bağlanır. Alana 15-20 gün adi havada saxlandıqdan sonra tam hazır olur. O deyir ki, alanaya bənzər digər dadlı bir təam da miyanpurdu. Alana ilə miyanpur eyni qaydada nazlı şaftalıdan hazırlanır. Alanadan fərqli olaraq miyanpurun içinə hazırlanmış qarışıq deyil, cəviz ləpəsi qoyurlar. Cəvizin tərkibində yağ çox olduğundan miyanpuru uzun müddət saxlamaq mümkündür.

Asya xanım deyir ki, sucuğu hazırlamaq üçün cəviz yaş-yaş sapa düzülərək qurudulur. Un, şəkər tozu, ədva, doşab qarışdırılaraq bulamac bişirilir. Bişirilmiş bulamac bir qədər soyudulur, sonra sapa düzülmüş cəviz ləpəsi qazanın içində olan isti bulamaca batırılıb-çıxarılır. Bu qayda bir neçə dəfə təkrar edilir, sonra quruması üçün ipə asılır. Sucuq elə yerdə saxlanılmalıdır ki, həmin yerdə rütubət olsun. Rütubət sucuğun yumşaq qalmasına kömək edir. Bunun üçün onu həm də düyü unundan hazırlamaq olar. Ordubadda bu təama sucuq yox, "basdıq" deyilir.

Quru meyvələr ilboyu əhalini faydalı vitamin və minerallarla təmin edən məhsullardandır. Onlar sağlamlıq üçün təzə meyvələr qədər faydalı və qidalıdır. Hazırda ticarət şəbəkələrində müxtəlif çeşiddə, növdə və keyfiyyətdə quru meyvələr təklif olunur. Alıcı isə hansı məhsulun daha keyfiyyətli olduğunu bilmədiyindən seçim qarşısında qalır. Bəs çərəzlərin kimyəvi yollarla qurudulmadığını, təbii və keyfiyyətli olduğunu ayırd etmək üçün nəyə fikir verməliyik?

Həyatını bu işə sərf etmiş Nurəddin Səfərovdan bu haqda da soruşuruq. Deyir ki, quru meyvələrin keyfiyyəti barədə ilk olaraq onların xarici görünüşü xəbər verir. Keyfiyyətli quru meyvələr bərk deyil, elastik olmalıdır. Eyni zamanda quru meyvələrin üzəri parıltısız və təbii olmalıdır. Təbiiliyi qorunaraq hazırlanmış quru meyvələr həmin meyvəyə xas olan ətrə malik olur. Əgər meyvədən spesifik olmayan qoxu hiss olunursa, bu, məhsulun keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli olduğunu göstərir.

*Bəli, meyvəçiliyin şöhrəti ilə özünü hələ yüz illər bundan əvvəl təsdiq etmiş Ordubad həm də milli mətbəx mədəniyyətimizin dəyərli elementlərini özündə saxlayır. Keçmişdə olduğu kimi, müasir dövrdə də bu qədim yurdumuzun sakinləri bölgəyə xas ənənələri yaşadırlar.*

**Gülcamal TAHİROVA**

***İdman sağlam həyat tərzinin formalaşmasına bilavasitə təsir göstərməklə yanaşı, eyni zamanda sağlamdüşüncəli gənclərin də uğurlar qazanmasına şərait yaradır. Bəs idmançı gənclərin uğur qazanmasında əsas amillər nələrdir? İlk olaraq yaradılmış şəraiti, mövcud idman infrastrukturunu, digər tərəfdən isə idmançını formalaşdıran məşqçiləri xüsusilə qeyd etmək lazımdır.***

İdman

# İdmançıların uğur qazanmasında məşqçilər də mühüm rol oynayırlar

## *Bəs Naxçıvanda məşqçi yetişdirmək üçün hansı addımlar atılır?*

İdmançı o vaxt uğur qazanır ki, məşqçisini daim yanında hiss edir: həm idmanda, həm də həyatında. Məşqçinin şəxsiyyəti, onun əxlaqı, yetirməsinə münasibəti idmançının nəinki peşəkar karyerasında böyük uğurlar qazanmasına, həm də bir şəxsiyyət kimi formalaşmasına mühüm təsir göstərir. Bu zaman idmançı öz məşqçisinin timsalında ona yol göstərən dostunu görür. Təbii ki, uğurlara aparan yolda məşqçilərin nizam-intizamı, peşəkarlığı, idmançıya yanaşma tərzləri də mühüm rol oynayır.

Məşqçi və idmançı arasındakı münasibətlərə gəlincə, əslində, bu münasibətlərin gələcəyi onların hər ikisindən asılıdır. Belə ki, məşq prosesində məşqçi rəhbər kimi əmr verir, idmançı isə onun əmrlərini səhvsiz yerinə yetirməyə çalışır. Əgər bu iki şəxs arasında qarşılıqlı hörmət varsa, o zaman idmançı məşqçinin əmrlərini daha həvəslə yerinə yetirir. Bu baxımdan ikinci mühüm məqam idmançının yaradıcılıq qabiliyyəti, işləmək bacarığıdır. Məşqçi nə qədər bacarıqlı olursa-olsun, iradəsiz idmançı ilə heç bir nəticə əldə etmək mümkün deyil. Məhz bu amillərə görə idman mütəxəssisləri məşqçi-idmançı münasibətlərində 3 əsas nüansı qabardırlar:

- *əsas fəaliyyətin məqsədi, qarşıya qoyulan vəzifələr;*
- *dəyərlər sistemi və məşqçinin tələbi;*
- *məşqçi və idmançının qarşılıqlı münasibətləri.*

Bəs peşəkar məşqçi necə olmalıdır? Və ya peşəkar məşqçi yetişdirmək üçün nələri bilməliyik? İlk olaraq hər bir məşqçi idman növündən asılı olaraq bölməyə uşaq qəbul edəndə onun yaşını, cinsini, idman ustalığı səviyyəsini mütləq nəzərə almalıdır. Yaxşı məşqçi, bir növ, yetirməsinin həyatında və karyerasında "ata" rolunu oynayan şəxsdir. Məşqçi olmaq böyük məsuliyyətdir. Çünki o, uşaqlara idmançı olmaqdan öncə vətənpərvər olmağı, Vətəni sevməyi öyrətməlidir. Vətəni sevən insan hər bir sahədə uğur qazanacaq, bu da şübhəsizdir.

Məşqçi idmançılarla, tələbələri ilə münasibətlərini düzgün istiqamətdə qurmalıdır. Psixoloqların apardığı araşdırmalardan sonra məlum olub ki, məşqçilərin idmançılarla davranış qaydalarında yaş həddi əsas götürülür. İnsan bioloji varlıq kimi 4 yaş dövrünü yaşayır – uşaq, yeniyetmə, gənc, yaşlı. Məşqçilər uşaq və gənclərə məşqə gəldiyi ilk gündən diqqət və qayğı göstərsələr, onlara düzgün istiqamət verməyi bacarsalar, münasibətlər də, gözlənilən nəticələr də yaxşı olacaq. Uşaqlar təbiətən çox sərbəstdirlər, əgər onlar məşq zamanı çılğınlıq edib şənlənir, oynayırlarsa, onlara qadağa qoymaq məqsədəuyğun deyil. Uşaq və yeniyetmələr həddən artıq ciddi məşqçiləri sevmirlər. Onlarla gülərüz, mülayim davranmaq lazımdır. Əks-təqdirdə məşqçi uşaq və gəncləri idmandan uzaqlaşdıra bilər.

İdmançılar "məşqçi" adını almaq üçün karyeralarında böyük çətinliklərdən, mərhələlərdən keçirlər. Zirvələrə yüksəldikdən sonra onu qoruyub saxlamaq da çətin olur.

Bəs Naxçıvanda məşqçilərin yetişdirilməsi üçün hansı tədbirlər görülür? Sualımızı Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh Heydərova ünvanladıq. O bildirdi ki, bu gün muxtar respublikada idmançı yetişdirməklə yanaşı, məşqçilərin də yetişdirilməsinə diqqətlə yanaşılır. İlk olaraq məşqçilərin seçimində daha çox təmsil etdikləri idman növlərində uğur qazanmalarına önəm verilir. Çünki hər bir məşqçi tələbələrinə uğur qazanmanın yollarını aşılamalıdır. Gənclər və İdman Nazirliyinin nəzdində olan bölmələrdə, eləcə də rayonlarda fəaliyyət göstərən Gənclər və İdman idarələrində çalışan məşqçilər üçün mütəmadi olaraq seminarlar təşkil olunur, onların digər rayonlarda keçirilən treninqlərdə, təlim-məşq toplanışlarında iştirakları nazirlik tərəfindən təmin edilir. Həmçinin Azərbaycanın tanınmış məşqçi-müəllimləri, idman mütəxəssisləri Naxçıvana tez-tez dəvət olunurlar. Bu da bizim məşqçilərin uğur qazanmalarına şərait yaradır. Hazırda muxtar respublikada 400-ə yaxın məşqçi müxtəlif idman növündə fəaliyyət göstərir və onların 9 minə yaxın tələbəsi vardır. Bu isə 9 mindən çox sağlamdüşüncəli gəncin formalaşması deməkdir. Gənclərin yaxşı idmançı kimi formalaşmasında Gənclər və İdman Nazirliyi daim işlər görür və bu işləri davam etdirməkdədir.

Bu gün idmanın daha da inkişaf etdirilməsində digər mühüm məsələ təhsil sistemində şagird və tələbələrin idmana necə cəlb olunmasıdır. Çünki bu günün tələbəsi sabahın məşqçi-müəllimidir. Növbəti yazımız idmançı yeniyetmə və gənclərimizin təhsilə görə idmandan məcburi olaraq uzaqlaşdırılmasına həsr ediləcək. Bunun məsuliyyətini kimlər daşıyır və ya kimlər bu məsələdə günahkardır: təhsil sistemində çalışanlar, yoxsa valideynlər? Bu sualın cavabını tapmağa çalışacağıq.

**Ceyhun MƏMMƏDOV**


## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

1. Pedaqogika və psixologiya kafedrası – filologiya üzrə fəlsəfə doktoru, dosent – 1 yer, 1 ştat
2. Riyaziyyat və tədrisi metodikası kafedrası – pedaqogika üzrə fəlsəfə doktoru, dosent – 1 yer, 1 ştat
3. Dillər və ədəbiyyat kafedrası – baş müəllim – 1 yer, 1 ştat

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 1***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 880